# "QURANİ-KƏRİM"

UOT 297.18



**ABBASOVA GÜLNAR İKRAM QIZI**

*Bakı Dövlət Universiteti Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının I kurs tələbəsi*

**Açar sözlər:** Quran, kitab, əlyazma, nüsxə, muzey, kitabxana, müsəlman ölkələri, alim, tədqiqatçı

**Ключевые слова:** Коран, книга, рукопись, копия, музей, библиотека, мусульманские страны, ученый, исследователь

**Key words:** Quran, book, manuscript, copy, museum, library, Muslim countries, scientist, researcher

Məlumdur ki, müsəlmanların müqəddəs kitabı "Quran"dır. Dünya mədəniyyətinin ən möhtəşəm əsərlərindən olan "Quran" müsəlmanların dini, fəlsəfi, hüquqi, mənbəyi olmaqla yanaşı, həm də çox mühüm və ədəbi səlnaməsidir. Başqa sözlə İslam dininin müqəddəs və ən əsas kitabıdır. İslam dinində "Quran" Allahın buyurduğu sözlərdir. Quranın 114 surəsi və 6236 ayəsi var.

Surə kəlməsi ərəbcədən tərcümədə dərəcə, yüksək rütbə, şərəf, gözəl bina mənalarını ifadə edir. Surələrdən 86-sı Məkkədə, 28-i isə Mədinədə nazil olmuşdur. "Ey insanlar" deyə başlanan surələr Məkkədə, "ey iman gətirənlər" deyə başlanan surələr Mədinədə nazil olanlardır. "Quran"ın I surəsi "Əl-Fatihə" surəsidir. 114 surədən yalnız "Tövbə» surəsi "Bismillahir rəhmanir rəhim" kəlməsi ilə başlamır. Buna baxmayaraq, bu kəlmə "Quran"da 114 dəfə işlənib, çünki Nəml surəsində 2 dəfə təkrarlanıb. "Quran"nın ən uzun surəsi Bəqərə surəsi (286 ayə), ən qısa surəsi isə Kövsər surəsidir: 3 ayə.

Ayə sözünün mənası əlamət, ibrət, dəlil mənalarını ifadə edir. "Quran"ın hər cümləsi öyüd xarakterli olduğuna görə ayələrə belə ad verilir. "Quran"ın ən uzun ayəsi Bəqərə surəsinin 282-ci ayəsidir. "Quran"ı digər səmavi kitablardan fərqləndirən əsas cəhət: onun uzun zaman müddətində – 23 ilə hissə-hissə nazil olması və təhrifə məruz qalmamasıdır. "Quran" Allah tərəfindən birbaşa deyil, mələk – Cəbrayıl vasitəsilə nəql olunmuşdur. Bəzi mənbələrə görə, Bəqərə surəsinin son 2 ayəsi Allah tərəfindən birba-

şa Məhəmməd peyğəmbərə vəhy edilmişdir.

"Quran" kəlməsinin mənası oxumaq, qiraət etmək deməkdir. "Quran" ləfzi və mənaları vəhyə istinad edən, qiraətiylə ibadət edilən, özünəxas xüsusiyyətləri olan Fatihə surəsi ilə başlayıb Nas surəsi ilə bitən səmavi kitabdır.

"Quran"ın çox adları vardır. Onun ən çox işlənilən və çox yayılan adı "Quran"dır. Digər adları isə aşağıdakılardır:

- Əl-Kitab – "Quran"da 230-dəfə işlənir. Bəzi digər səmavi kitablar üçün də işlənilir.
- Ümmül-Kitab – Ana kitab mənasına gələn. Bu ad Lövhü-Məhfuz və Fatihə surəsi üçün də işlənmişdir.
- Əl-Furqan – Haqq ilə batili ayıran deməkdir. Furqan adı altı ayədə işlənir.
- Əl-Huda – Hidayətedici deməkdir.
- Əz-Zikr – Zikr həm zikr etmək, həm də şərəf və şərəfli olmaq mənalarına gəlir.

"Quran"ın bunlardan başqa Tənzil, Haqq, Ruh, Burhan, Əziz, Şifa, Hikmət, Müheymin, Hablullah, Fasl, Bəyan və bir çox adları da vardır.

Hər ayə və surə nazil olduğunda Məhəmməd peyğəmbər vəhy katiblərini çağırır və onlara, bu ayələri hansı ayələrin yanına və hansı surəyə yazacaqlarını bildirirdi.

"Quran"ın qədim nüsxələri haqqında müxtəlif fikirlər səsləndirilir. Mütəxəsislərin fikrincə "Quran"ın ilk qədim nüsxələri VII-VIII əsrlərdə meydana çıxmışdır. Məşhur islamşünas Krımiskinin fikrincə "Quran"ın ən qədim əlyazma nüsxələri peyğəmbərin müqəddəs şəhərləri olan Məkkə və Mədinədə gizli və əlçatmaz yerdə saxlanılır. Heç kəsə göstərilmir. Dünyanın bir sıra kitabxana və muzeyində "Quran"ın gözəl qədim əlyazmaları vardır. 2015-ci ildə Almaniyanın Tübingen universitetinin kitabxanasında hələlik ən qədim hesab edilən əlyazma nüsxəsi tapılmışdır. Tədqiqatçıların fikrincə bu əlyazma Məhəmməd peyğəmbərin vəfatından 20-40 il sonra yazıya köçürülmüşdür. Müasir elektron cihazların hesablamalarına görə bu əlyazma 649-675-ci illər arasında yazılmışdır. Həmin tapıntıya qədər ən qədim



əlyazma 671-ci ilə aid olan "Səna" əlyazması hesab olunurdu. İslam tarixindən məlumdur ki, VII əsrdə qiyamçılar 3-cü Xəlifə Osmanı ibadətgahında ibadət zamanı qətlə yetirmişlər. Osmanın qanı, yanında saxla-

dığı "Quran"ın (əsl nüsxəsinin) səhifələrinə tökülmüşdür. Səhifələrində qan ləkəsi olan həmin nüsxə "Osmanın "Quran"ı" adlandırılmışdır. Misirdə, Pakistanda və Türkiyədə nümayiş etdirilmişdir. Hər bir ölkə öz arxiv və kitabxanalarında saxlanılan "Quran"ın "Osmanın "Quran"ı" əsasında yazıldığını iddia edir. Məsələn: Londonda saxlanılan "Quran" nüsxələrinin birində yazılıb "Affan oğlu Osmanın özü tərəfindən yazılıb". Əlbəttə, üzərində qan ləkələri olan nüsxələrin çoxu saxtalaşdırılmışdır, ancaq yenə də qədim hesab olunurlar. Osmanın müqəddəs "Quran"ı kimi tanınan qədim əlyazmalardan biri Daşkənddə saxlanılır. Vaxtı ilə Teymurləng İraqı işğal edərkən Bəsrə şəhərində həmin əlyazmanı ələ keçirmiş və Səmərqəndə gətirmişdir. 400 il Səmərqənddə qaldıqdan sonra XIX əsrin əvvəllərində bir rus generalı əlyazmanı bir imamdan 100 rubla satın almış və onu Sankt-Peterburqun imperator kitabxanasına hədiyyə vermişdir. Sonralar müsəlmanlar "Quran"ın bu qədim nüsxəsini geri qaytarmağa cəhd göstərsələr də, çar hökuməti onlara divan tutmuşdur. 1917-ci ildə müsəlmanlar yenidən Rusiya xalq sovetinin sədri V.İ.Leninə müraciət edərək bu nadir nüsxənin qaytarılmasını xahiş etdilər. Lenin müsəlmanların arzusunu qəbul etdi. 1917-ci ilin dekabrında geri qaytarıldı. 1918-ci ilin yanvar ayının 3-də xüsusi vaqonla Ufa şəhərinə gətirilərək Milli Müsəlman parlamentinə təhvil verildi.

1923-cü ildən həmin "Quran" Daşkənddə Özbəkistan tarix muzeyinin əlyazmalar fondunda saxlanılır.

1989-cu ildə isə "Osman "Quran"ı" Orta Asiya və Qazaxıstan müsəlmanlarının ruhani idarəsinə verilib. "Quran"ın bu nadir əlyazması nüsxəsi gizli və temperaturu dəyişməyən seyfdə saxlanılır.

Seyf çox nadir hallarda yalnız Əlyazma nümayişi zamanı açılır. "Quran"ın əlyazmaları XIV və XV əsrlərdə sürətlə artmağa başlayaraq Şərq və Avropa ölkələrinə yayılır. "Quran"ın elm aləminə məlum olan ilk tərcüməsi XI yüzilliyə aiddir. Çağatay ləhcəsində olan bir nüsxəsi Mançestrdə Rilands kitabxanasında, Oğuz ləhcəsində olan natamam bir nüsxəsi Mançestrdə Rilands kitabxanasında, Oğuz ləhcəsində olan natamam bir nüsxəsi Britaniya muzeyində saxlanılır. 1338-ci ildə Elxanilər üçün kəhcədə Şirazda yazılmış başqa nüsxə Türkiyədədir. "Quran" 1141-ci ildə latın, 1513-cü ildə italyan, 1616-cı ildə alman, 1647-ci ildə fransız, 1648-ci ildə ingilis dillərinə tərcümə edilmişdir. Rusiyada "Quran"ın tərcüməsinə XVIII əsrdə Pyoturun təşəbbüsü ilə başlanıb, 1716-cı ildə Peterburqda nəşr edilmişdir. "Quran"ın tərcümələrindən ən mükəmməli Peterburqda nəşr edilmişdir. Digər tərcümələrdən biri Valeri Proxovoy tərəfindən tərcümə edilmişdir.  XI əsrdən başlayaraq XIX əsrin sonlarına qədər "Quran" əlyazma şəklində Azərbaycanda və Şərq xalqlarının dilində geniş yayılmış, mütailə olunmuş və öyrənilmişdir. Azərbaycan dilində "Kəşv-əl-həqaiq-ən-nükət-əl-ayəti-bəd-dəqaiq" adı ilə nəşr edilmiş, müəllifi isə Bakı Quberniya Şiə Məclisinin sədri Mircəfər Mir Məhəmməd Kərim Cəfər oğlu olmuşdur. Bu nəşr 3 cilddən ibarət olmuşdur. Tərcümə-təfsiri "Kaspi" qəzetinin "Buxariyyə" mətbəəsində 1904-cü ildə çap olunmuşdur. 3-cü cild isə 1906-cı ildə nəşr olunur. Nəşrin xərci xeyriyyəçi Tağıyev tərəfindən ödənilir. Məhəmmədhəsən Mövladzadə Şəkəvinin 1908-ci ildə Tiflisdə "Qeyrət" mətbəəsində çap edilmiş "Kitab-əl-bəyan-fi-təfsir-əl-Quran" adlı 2 cildlik tərcümə-təfsiri də öz elmliyi və samballığı ilə diqqəti cəlb edir. Müasir dövrümüzdə "Quran"ın orijinalından, yəni ərəb dilindən Azərbaycan dilinə ən yaxşı tərcümələrindən biri akad. Z.M.Bünyadov və prof.V.M.Məmmədəliyev tərəfindən həyata keçirilmişdir. Son illərdə buraxılmış bu nəşrin məsləhətçi-redaktoru Qafqaz və Zaqafqaziya şeyxülislamı Hacı Allahşükür Paşazadədir. Bu nəşrdə ön söz V.M.Məmmədəliyevə, qeyd və şərhlər isə Z.M.Bünyadova məxsusdur. 60 çap vərəqi həcmində olan bu nəfis, gözəl bədii-texniki tərtibata malik olan nəşrin rəssamı Oktay Sadıxzadədir. Tirajı 100.000 nüsxədir.

Müsəlman ölkələrində "Quran"ın nəfis, əla bədii və texniki tərtibatla buraxılmasına diqqət artır. Məsələn, 1997-ci ildə Birləşmiş Ərəb əmrinin ad gününə ona təqdim etmək üçün "Qurani-Kərim"in nəfis buraxılışı həyata keçirilib. 8 cilddən ibarət olan bu nəşrin vərəqlərində yazıda qızıldan, cildində isə qiymətli daşlardan, materiallardan istifadə olunmuşdur. Bu nəfis, gözəl bədii-texniki tərtibata malik olan "Qurani-Kərim" 8 cildliyi 4 milyon ABŞ dollarına başa gəlmişdir.

Şiə mənbələrində qeyd olunur ki, Peyğəmbərin vəfatından sonra İmam Əli 6 ay ərzində "Quran"ın surələrini ayəbəayə şəni-nüzul və səbəbi-nüzulla birlikdə yazıb. Bu kitab tamamlanan vaxt "Quran" hafizlərinin çox olması səbəb göstərilərək ona ehtiyacın olmaması vurğulanıb. Həmin kitab imamlardan bir-birinə ötürülüb. Lakin müharibələr zamanı "Quran" hafizlərinin kütləvi şəkildə şəhid olması "Quran"ın kitab kimi gələcək nəsillərə ötürmək zərurətini gündəmə gətirib. Bu səbəbdən Ömərin təklifi ilə Zeyd b. Sabitin başçılığı ilə İmam Əli, Osman, Übeyy b. Kab, İbn Məsud, Əbu Dərda kimi səhabələrdən meydana gələn bir komissiya qurulub. Çalışmalar nəticəsində "Quran" bir kitab halına gətirilib. İbn Məsudun təklifi ilə "Quran"a "Mushaf" adı verilib. Bu "Mushaf" Xəlifə Əbu Bəkirin yanında mühafizə olunmağa başlanıb.

Alimlər tərəfindən "Ma VI 165" kod adı ilə qeydə alınmış bu "Quran" nüsxəsi 656-cı ildə xəlifə seçildikdən sonra İslam dövlətinin mərkəzini Kufəyə köçürən İmam Əli ibn Əbi Talib vasitəsilə geniş yayılmış "Kufi xətti" ilə yazılıb. "Medieval Histories Magazine"-in ("Orta əsrlər tarixi" jurnalı) hesablamalarına görə, bu əlyazma 95,4% statistik ehtimalla 649 – 675-ci illərə aid edilə bilər.

Əlyazmanın yaradıldığı zaman kəsiyi İmam Əlinin az saylı yazıb-oxuya bilən ilk müsəlmanlardan olması faktı ilə birləşdirildikdə onun İmama aid olması barədə çox böyük ehtimal yaranır. Bu ehtimal Peyğəmbərin vəfatından sonra sayılıb-seçilən müsəlman liderləri arasında İmam Əlinin "Quran"ı bütünlükdə əzbərləyən və "Hafiz" olan yeganə şəxs olması ilə də dəstəklənir.

Bu əlyazmanın 1339-cu ildən qorunaraq dövrümüzə gəlib çata bilən yüksək keyfiyyətli perqament (heyvan dərisi) üzərində yazılması göstərir ki, bu sənəd rəsmi məqsədlər üçün - çox güman ki, İmam Əlinin İslam dövlətinin işi ilə əlaqədar yaradılmışdır.

Əlyazma Almaniyada nümayişə çıxarılacaq. Belə ki, Universitet kitabxanasının elanında deyilir: "Üzümüzə gələn payız aylarında perqament nümunələrimizdən biri Antverpdə yerləşən Hendrik Konsayns İrsi Kitabxanasında "Müqəddəs yazılar – Müqəddəs Məkanlar. Yəhudilik, Xristianlıq, İslam" sərgisində ictimaiyyət üçün nümayiş etdiriləcək. Bu, yeni tapıntıların geniş auditoriyanın diqqətinə çatdırılması üçün əla bir imkan olacaq".

Universitet nümayəndəsi Dr. Yeva Mira Yusif-Qrobun bildirdiyinə görə, "Quran" layihəsində "computatio radiocarbonica" adlı modul da var ki, burada "Quran"ın ən qədim nüsxələrinin palaeoqrafik analizi və yaşının müəyyən edilməsi radiokarbon analizi kimi elmi üsullarla həyata keçiriləcək.

"Ma VI 165" kod adlı bu əlyazma İsra surəsinin 37-ci ayəsindən Yasin surəsinin 57-ci ayəsinə qədər olan bir hissəni özündə ehtiva edir. "Quran"ın özünəməxsus bir çox xüsusiyyətləri vardır. Məlumdur ki, "Quran"da elə bir mövzu yoxdur ki, onu izləmək üçün "Quran"ı bütünlüklə oxumaq lazım gəlməsin. Bu xüsusiyyət başqa kitabda mövcud deyil. Başqa sözlə desək "Quran"da məsələ və mövzuların bir-birinə bağlılığı tədqiqatçını məcbur edir ki, mövzunu nəzərdən keçirsin və öyrənsin. İranın Həmədan şəhərində dünyanın ən kiçik "Quran"ı hazırlanıb.

"Quran"-ın uzunluğu 7 millimetr, eni isə 3 mikrometrdir. Ruhullah Şərifi tərəfindən lazer texnologiyasından istifadə edilərək yazılan "Quran" kitabı 633 səhifədən ibarətdir. Kitabdakı ayələri mikroskop vasitəsilə oxumaq olar.

Azərbaycanlı rəssam Tünzalə

Məmmədzadə dünyanın ilk ipək "Qurani-Kərim" kitabını hazırlayıb. 3 il müddətində hazırlanan kitabda surələrin hamısı qara şəffaf ipək üzərində, qızılı və gümüşü boyalarla yazılıb. Kitabın hazırlanmasında 50 metr parça 1500 ml boyadan, üz qabığında dəri materialından istifadə olunub.

Dünyanın ən böyük "Quran"ının uzunluğu 2 metr, eni isə 1,5 metrdir. İtaliyada hazırlanmış "Qurani-Kərim"in ağırlığı 800 kiloqramdır. 632 səhifə şotland kağızından hazırlanıb. "Qurani-Kərim"in üz qabığı qızıl, gümüş, kəhrəba ilə bəzədilib.

Nəticə olaraq qeyd etmək istəyirəm ki, "Quran" müsəlmanların müqəddəs kitabı olmaqla bərabər, həm də ən qiymətli kitabıdır. Apardığım araşdırmalar nəticəsində məlum oldu ki, ölkəmizdə, o cümlədən dünyanın bir çox ölkələrində "Quran"ın qədim əlyazmaları qorunub saxlanılır. Tarix boyu "Quran" dünyanın müxtəlif dillərinə tərcümə olunmuş, üzərində tədqiqat işləri aparılmış və yeni-yeni faktlar əldə olunmuş və olunmaqdadır.

## Ədəbiyyat

1. Allahverdiyev B.V. Ümumi kitab tarixi. -Bakı: "Azərbaycan Milli Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 2003, 384 s.

**Гюльнар Аббасова**

## «Коран»

## Резюме

В статье дается общая информация о священной книге всего мусульманского мира – о Коране, также об истории его создания.

Автор дает информацию о самых старых копиях Корана, о ряде исторических фактов о Коране. Автор представляет самые древние рукописи и дает интересную информацию о них.

**Gulnar Abbasova**

## «The Quran»

## Summary

The article provides general information about the holy book of the all Muslim world - the Quran, also about the history of its creation.

The author gives information about the oldest copies of the Quran, about a number of historical facts about the Quran. The author presents the most ancient manuscripts and gives interesting information about them.